SR AUDIT & TAX SERVICES
ASSURABLE SOLUTIONS

"SR Audit Solutions" MMC
Caspian Sport Plaza, B bloku, 1405-ci ofis,
Heydər Əliyev pr., 115, Bakı şəhəri
info@sraudit.com

# MÜSTƏQİL AUDİTORUN HESABATI

## Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyinə:

**Müsbət Rəy**

Biz, **Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin** (bundan sonra Agentlik) 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətinə dair konsolidə olunmuş hesabatından, məcmu gəlirlərə dair konsolidə olunmuş hesabatından, konsolidə olunmuş kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üçün konsolidə olunmuş pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardıq.

**Hesab edirik ki, əlavə edilmiş konsolidə olunmuş maliyyə hesabatları Agentliyin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.**

**Rəy üçün əsaslar**

Biz, auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Agentlikdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Agentliyin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Agentliyi ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Agentliyin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İdarəetməyə məsul şəxslər Agentliyin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun

aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Audit zamanı BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində yaranan əhəmiyyətli təhrifi aşkarlamamaq riski, xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifi aşkarlamamaq riskindən daha yüksəkdir, çünki saxtakarlıq sözləşmə, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Agentliyin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Agentliyin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə gələcək hadisə və ya şərtlər Agentliyin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

**08 iyun 2026-cı il**

**"SR Audit Solutions" MMC-nin Direktoru,**
**Azərbaycan Respublikası Auditorlar Palatasının**
**üzvü, Auditor:** **Vəlizadə Səftər Vəli oğlu**

**Azərbaycan Respublikasının Auditorlar Palatası**
**tərəfindən 30. 12. 2022-ci il tarixdə verilmiş**
**İCAZƏ№ SA/381**

## “Əqli Mülkiyyət Agentliyi” Publik Hüquqi Şəxs

**31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə**
**Konsolidə olunmuş Maliyyə vəziyyəti haqqında hesabat**

*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31.12.2025 | 31.12.2024 |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddtli aktivlər** | | | |
| Torpaq,tikili,avadanlıqlar | 4 | 1 686 786 | 1 633 034 |
| Qeyri-maddi aktivlər | 5 | 165 178 | 183 541 |
| Torpaq, tikili, avadanlıqlarla bağlı məsrəflərin kapitallaşması | 6 | | |
| Sair uzunmüddətli qeyri-maliyyə aktivləri | 7 | | |
| Sair uz.n m-li aktivlər (gələc.k dövrün xərcləri) | 8 | | |
| **Cəmi uzunmüddətli aktivlər** | | **1 851 964** | **1 816 575** |
| **Qısamüddətli aktivlər** | | | |
| Ehtiyatlar | 9 | 148 865 | 179 413 |
| Debitor borcları | 10 | 142 594 | 124 185 |
| Sair qısa müddətli aktivlər | 11 | - | - |
| Pul vəsaitləri və onun ekvialentləri | 12 | 17 297 879 | 15 365 625 |
| **Cəmi qısamüddətli aktivlər** | | **17 589 338** | **15 669 223** |
| **Cəmi aktivlər** | | **19 441 302** | **17 485 798** |
| **Kapital və öhdəliklər** | | | |
| **Kapital** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | | 7 594 915 | 7 594 915 |
| Kapital ehtiyatları | | 534 955 | 493 599 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 13 | 10 269 046 | 8 507 822 |
| **Cəmi capital** | | **18 398 916** | **16 596 336** |
| Uzunmüddətli faiz yaradan öhdəliklər | | | |
| Sair uzunmüddətli öhdəliklər | | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | | |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Təxirə salınmış gəlirlər | 14 | 214 081 | 212 744 |
| Qısamüddətli kreditor borcları | 15 | 414 155 | 336 500 |
| Sair qısamüddətli öhdəliklər | 16 | 414 150 | 340 218 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **1 042 386** | **889 462** |
| **Cəmi öhdəliklər** | | **1 042 386** | **889 462** |
| **Cəmi capital və öhdəliklər** | | **19 441 302** | **17 485 798** |

**Qeydlər bu maliyyə hesabatalarının tərkib hissəsidir**

**Auditor rəyi 4 və 5-ci səhifələrdə öz əksini tapmışdır**

Səhifə 6-28-də olan maliyyə hesabatları Rəhbər tərəfindən təsdiq edilmiş və onun adından imzalanmışdır

**Rəhbərlik tərəfindən:**

**İdarə Heyətinin üzvü**
Bakı, Azərbaycan Respublikası

**Maliyyə və iqtisadiyyat şöbəsinin müdiri**
Bakı, Azərbaycan Respublikası

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi

## “Əqli Mülkiyyət Agentliyi” Publik Hüquqi Şəxs

**31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə**
**Konsolidə olunmuş Maliyyə nəticələri haqqında hesabatı**

*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31.12.2025 | 31.12.2024 |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 17 | 8 479 285 | 8 836 725 |
| Digər gəlirlər | 18 | 620 055 | 401 477 |
| ***Ümumi gəlirlər*** | | **9 099 340** | **9 238 202** |
| | | | |
| İnsan resusları üzrə xərclər | 19 | (6 388 122) | (6 125 440) |
| Amortizasiya və köhnəlmə xərcləri | 20 | (227 628) | (209 460) |
| Fəaliyyət üzrə xərclər | 21 | (703 156) | (605 929) |
| Digər xərclər | 22 | (19 210) | (339 986) |
| **Vergiqoymadan əvvəl mənfəət** | | **1 761 224** | **1 957 387** |
| **Mənfəət vergisi** | | - | - |
| **Hesabat dövründə xalis mənfəət** | | **1 761 224** | **1 957 387** |

**Qeydlər bu maliyyə hesabatalarının tərkib hissəsidir**
**Auditor rəyi 4 və 5-ci səhifələrdə öz əksini tapmışdır**
Səhifə 6-28-də olan maliyyə hesabatları Rəhbər tərəfindən təsdiq edilmiş və onun adından imzalanmışdır

**İdarə Heyətinin üzvü**
Bakı, Azərbaycan Respublikası

**Maliyyə və iqtisadiyyat şöbəsinin müdiri**
Bakı, Azərbaycan Respublikası

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi

## **“Əqli Mülkiyyət Agentliyi” Publik Hüquqi Şəxs**

**31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə**
**Konsolidə olunmuş Kapitalda dəyişikliklər haqqında hesabatı**

| | **Ödənilmiş nizamnamə kapitalı** | **Digər kapital Ehtiyatları** | **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **Cəmi kapital** |
|---|---|---|---|---|
| **01.01.2025 tarixinə qalıq** | **7 594 915** | **493 599** | **8 507 822** | **16 596 336** |
| Nizamnamə kapitalı | | | | |
| Hesabat dövrünün xalis mənfəəti (zərəri) | | | *1 761 224* | *1 761 224* |
| Digər kapital ehtiyatları | | *41 356* | | *41 356* |
| *Uçot siyasəti ilə bağlı düzəlişlər* | | | | |
| Maddı yardım (dövlət büdcəsindən) | | | | |
| **31.12.2025 tariixinə qalıq** | **7 594 915** | **534 955** | **10 269 046** | **18 398 916** |
| *2025-ci il üzrə kapitalda ümumi dəyişikliklər* | | | | |

**İdarə Heyətinin üzvü,sədr müavini**
Bakı, Azərbaycan Respublikası

**Maliyyə və iqtisadiyyat şöbəsinin müdiri**
Bakı, Azərbaycan Respublikası

## “Əqli Mülkiyyət Agentliyi” Publik Hüquqi Şəxs

**31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə**
**Konsolidə olunmuş Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

*(Azərbaycan Manatı ilə)*

| | 31.12.2025 | 31.12.2024 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövrü üzrə xalis mənfəət | 1 761 224 | 1 957 387 |
| Hesablanmış Mənfəət vergisi | | |
| gəlir və xərclərin qeyri-pul maddələri,o cümlədən | | |
| Torpaq ,tikili və avadanlıqlar üzrə amortizasiya | 208 701 | 186 700 |
| Qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri | 18 927 | 22 760 |
| Şübhəli borclar üzrə yaranmış ehtiyatlar | | |
| Əsas vəsaitlərin xaricolmasından zərər | 450 | - |
| Maliyyə və investisiya fəaliyyətinə aid olan maddələr | | |
| Material ehtiyatlarının artması(azalması) | 30 518 | (3 489) |
| Sair qısamüddətli aktivlərdə artma (azalma) | | - |
| Vergi və sair məcburi öhdəliklərdə artma | | |
| Sair qısa müddətli öhdəliklərdə artım | 152 924 | (473 750) |
| Debitor borcların artması (azalması) | (18 109) | (25 822) |
| Kreditor borclarının artması (azalması) | | |
| Sair | | - |
| Ödənilməmiş mənfəət vergisi | | |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti** | **2 154 635** | **1 663 786** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Torpaq, tikili və avadanlıqların əldə edilməsi | (263 521) | (82 182) |
| Qeyri-maddi aktivlərin əldə edilməsi | (216) | (1 208) |
| Torpaq,tikili və avadanlıqlarla və qeyri-maddi aktivlərlə bağlı məsrəflərin kapitallaşdırılması | | |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti** | **(263 737)** | **(83 390)** |
| **Maliyyə fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Alınmış bank kreditləri | | |
| Ödənilmiş bank kreditləri | | |
| Alınmış borclar | | |
| Qaytarılmış borclar | | |
| Kapitalın istifadəsi | 41 356 | 183 183 |
| Yenidən qiymətləndirmə üzrə kapital ehtiyatı | | |
| Divident üzrə ödənişlər | | |
| **Maliyyə fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti** | **41 356** | **183 183** |
| **Pul vəsaitləri və onların ekvivalentinin xalis hərəkəti** | **1 932 254** | **1 763 579** |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin ilin əvvəlinə qalığı** | **15 365 625** | **13 602 047** |
| **İl ərzində pul vəsaitlərinin atrması(azalması)** | **1 932 254** | **1 763 579** |
| **Xarici valyuta məzənnəllərində dəyişikliklərin təsiri** | **0.00** | **0.00** |
| **Pul vəsaitlərinin və onların ekvibalentlərinin ilin sonuna qalığı** | **17 297 879** | **15 365 625** |

**İdarə Heyətinin üzvü**
Bakı, Azərbaycan Respublikası

**Maliyyə və iqtisadiyyat şöbəsinin müdiri**
Bakı, Azərbaycan Respublikası

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi